**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**İLHAM ADİL OĞLU MƏMMƏDOV**

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏHALİSİ (TARİXİ DEMOQRAFİK TƏDQİQAT: 1991-2009-CU İLLƏR)

İxtisas: 5503.02 - Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

**Dissertasiya işi AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əhali tarixi və tarixi-demoqrafiya" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:**
**tarix üzrə elmlər doktoru, professor İ.X.ZEYNALOV**

**Rəsmi opponentlər:**

**tarix üzrə elmlər doktoru, professor L.L.HƏSƏNOVA**

**tarix üzrə fəlsəfə doktoru C.Ş.SADIQOV**

**Aparıcı təşkilat: Sumqayıt Dövlət Universiteti "Azərbaycan tarixi (humanitar ixtisaslar üzrə) və tarixin tədrisi metodikası " kafedrası**

**Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin Nəzdində yaradılmış tarix elmləri doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "_21__" __06_2014-cü il tarixli iclasında, saat ___da olacaq**

**Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23**

**Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.**

**Avtoreferat "_____" _________ 2014-cü ildə göndərilmişdir.**

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müstəqilliyimizin bərpasından keçən 23 il ərzində Azərbaycanda həyata keçirilən iqtisadi və siyasi islahatlar respublikamızı regionun aparıcı dövlətləri sırasına çıxarmışdır. Son illər iqtisadi artım, yəni ümumi daxili məhsulun həcminə görə dünya dövlətləri arasında öndə olan respublikamızda neft sektoru ilə yanaşı, qeyri neft sektoru da inkişaf etməkdədir. Respublika Prezidenti İlham Əliyevin 2013-cü ildə özünün andiçmə mərasimində qeyd etdiyi kimi, «Gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər amil vardır. Son on ilin təcrübəsi onu göstərir ki, "xalq", "millət" anlayışları ön planda olanda istənilən problem öz həllini tapa bilər. Bizim siyasətimiz milli maraqlar üzərində qurulub. Bizim siyasətimiz müstəqilliyin möhkəmlənməsinə istiqamətləndirilibdir. Bu gün Azərbaycan müstəqil dövlət kimi dünya miqyasında özünə layiq yerini tuta bilibdir»[1].

Azərbaycanın iqtisadi uğurları onun zəngin təbii ehtiyatları ilə yanaşı, həm də insan potensialı ilə bağlıdır. Bu baxımdan XX yüzilliyin sonu – XXI yüzilliyin əvvəllərində Azərbaycanda gedən demoqrafik proseslərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

SSRİ-nin dağılması, Azərbaycanın öz müstəqilliyini bərpa etməsi, Ermənistanın Azərbaycana açıq hərbi müdaxiləsi və s. kimi hadisələr zənciri bütövlükdə regionda, o cümlədən Azərbaycanda demoqrafik vəziyyəti kəskin şəkildə dəyişdi.

Ermənistan respublikasında yaşayan 200 mindən çox soydaşımız bu respublikanın Azərbaycana təcavüzü nəticəsində başlayan Qarabağ savaşının ilk qurbanları oldular və 1988-1990-cı illərdə öz dədə-baba torpaqlarını tərk edərək respublikamıza pənah gətirdilər. Azərbaycan Respublikasının ərazisinin 20%-nin, Dağlıq Qarabağ Muxtar Vilayəti və ona bitişik olan yeddi rayonun Ermənistan tərəfindən işğalından sonra isə Azərbaycan bir milyon nəfərə qədər qaçqın və məcburi köçkünü olan respublikaya çevrildi. Nəticədə respublika ərazisində gedən demoqrafik proseslərdə - əhalinin sayı, yerləşməsi, yaş, cins, milli tərkibində və s. ciddi dəyişikliklər baş verdi.

Qeyd edək ki, Qarabağ müharibəsi nəticəsində ölkəyə dəyən ziyan milyonlarla manat dəyərində ölçülür. Lakin erməni təcavüzünün respublikamıza vurduğu ən böyük ziyan Azərbaycan əhalisinə dəyən ziyandır.

Hər bir ölkənin ən başlıca kapitalı onun əhalisidir. Dövlətin iqtisadi inkişafının təməlində məhz əhali amili dayanır. Bu səbəbdən müasir

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi. 19 oktyabr 2013-cü il –www.president.az/

dünyamızın mövcud qlobal problemlərindən biri də əhali, daha dəqiq desək, əhalinin miqrasiyasıdır. Ölkədə mövcud demoqrafik prosesləri tənzimləmək və normal məcraya yönəltmək, müvafiq əhali və onun tərkib hissəsi olan miqrasiya siyasətini hazırlamaq məqsədilə 9 dekabr 1999-cu ildə Azərbaycan Respublikası Prezidentinin 290 saylı sərəncamı ilə «Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası» qəbul edilmişdir. Orada qeyd edildiyi kimi, «demoqrafiya siyasətində başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şərait yaradılmasına nail olmaqdır»[1] .

2004-cü ilin noyabrında isə dövlətin demoqrafik siyasətinin istiqamətlərini müəyyən edən «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı» qəbul olunmuşdur. Burada «Gənclər siyasəti haqqında» qanunu (2002-ci il) və «Azərbaycan Gəncliyi Dövlət Proqramı»nı (2005-2009-cu illər) da xüsusi qeyd etmək istərdik. Həmin qanun və proqramlar dövlətin əhali siyasətini nizamlamaqla yanaşı, həm də bu problemin qanunvericilik bazasını da təşkil edir[2] .

Müstəqillik dövründə Azərbaycanda mövcud olan demoqrafik vəziyyət SSRİ dövründəkindən tam fərqlidir. Bu baxımdan Azərbaycanda gedən demoqrafik proseslərin: əhalinin say dinamikası, yerləşməsi, tərkibi, əhalinin təkrar istehsalının kompleks şəkildə tədqiqi həm elmi, həm də praktik baxımdan çox əhəmiyyətli və aktualdır. Burada qeyd etmək istərdik ki, müasir demoqrafiyada əhalinin təkrar istehsalı 3 tarixi tipə bölünür: 1. arxetip (Əhalinin təkrar istehsalının bu tipi mənimsəmə təsərrüfatının mövcud oldugu dövrə aiddir.), 2. Ənənəvi və ya sənayeyə qədərki tip (Bu tipin hakim olduğu dövrdə doğum səviyyəsi təbii artım və nikahda olan müxtəlif yaşda olan qadınların payı ilə müəyyən olunurdu.), 3.Əhalinin təkrar istehsalının müasir tipi isə ilk olaraq inkişaf etmiş kapitalist ölkələrində yaranmışdır. Demoqraf D.İ.Valenteyin[3] təqdim etdiyi və əhalinin təkrar istehsalının tiplərini xarakterizə etməyə imkan verən cədvəldən də aydın olduğu kimi, müasir Azərbaycanın əhalisi təkrar

---

[1] Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №8, s.2921-2927.

[2] Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №11, s. 3198-3224; Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-ci illər)/Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2005, №8, s.2342-2360.

[3] Демография. Современное состояние и перспективы развития. / Под ред. Проф. Д.И.Валентея. М.: Высшая школа, 1997, 271 с.

istehsal səviyyəsinə görə əhalinin müasir tipinə aiddir. Bu isə o deməkdir ki, bu tipə daxil olan əhalinin təkrar istehsalında yaranan problemlər bizim tədqiqat mövzumuz olan Azərbaycan Respublikasının əhalisinə də aiddir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiq edilən dövr iki tarixi hadisə ilə məhdudlaşır: I. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nın qəbul edilməsi və bununla da Azərbaycanın dövlət müstəqilliyinin bərpası; II. Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 7 iyun 2006-cı il tarixli fərmanına əsasən 2009-cu ilin 13-22 aprelində Əhalinin ikinci siyahıyaalınmasının keçirilməsi[1]. Əhali probleminin bütün aspektləri bu siyahıyaalınmanın nəticələrində öz əksini tapmışdır. Məhz bu baxımdan da tədqiq edilən dövrün sonu kimi 2009-cu il götürülmüşdür. Lakin bununla yanaşı qeyd etməliyik ki, ayrı-ayrı problemlərin tədqiqi zamanı SSRİ-nin dağılması ərəfəsində, yəni 1989-cu il ümumi əhali siyahıyaalmasının materiallarından da istifadə edilmişdir. Lakin bütün çatışmazlıqlarına baxmayaraq siyahıyaalma həmin dövrdəki mövcud durumu özündə əks etdirən ən etibarlı və sonuncu mənbə olduğundan, keçən dövr ərzində baş verən dəyişiklikləri daha dərindən öyrənmək və müqayisələr aparmaq üçün məhz onun nəticələrinə müraciət edilmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi**. Müstəqillik dövründə Azərbaycan Respublikasında gedən demoqrafik proseslər elmi araşdırmaların obyekti olmuşdur.

Əhali demoqrafiyası elmi problem kimi tarixçilərin, iqtisadçıların, statistiklərin, sosioloqların tədqiqat obyektidir və müstəqillik illərində Azərbaycanda bu problemə dair xüsusi tarixşünaslıq formalaşmışdır. Burada tarixçilər K.Şükürovun[2], L.Həsənovanın[3], o cümlədən BDU-nun "Dünya

---

[1] "Azərbaycan Respublikasında 2009-cu ildə əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (7 iyun 2006-cı il, № 415)

[2] Şükürov K.K. Azərbaycanın əhalisi haqqında ədəbiyyat. Biblioqrafik göstərici (Qədim zamanlardan müasir dövrədək). Bakı:1997; Şükürov K. Kameral təsvirlər Şimali Azərbaycanın əhali tarixi və demoqrafiyasına dair qaynaq kimi. (həmmüəllif Z.Cavadova.BDU-nun xəbərləri, 2000, №4, s.45-62); Şükürov K. K. Azərbaycan demoqrafiyası: meydana gəlməsinin əsas mərhələləri" (BDU-nun 80-illiyinə həsr olunmuş elmi konfransının materialları. Bakı, 2000; Demoqrafiya.Ensiklopedik lüğət. 3 cilddə. I c. Əhali haqqında elm. Hissə 1.Əhali haqqında elm tarixi. Bakı: 2001; Azərbaycan əhalisi: Öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: Elm, 2004 və s.

[3] Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında. Bakı: BDU, 2003;

azərbaycanlıları: tarixi demoqrafiya problemləri” elmi-tədqiqat laboratoriyasının bir qrup tədqiqatçısının araşdırmalarını xüsusi qeyd etmək istərdik.

Laboratoriyanın fəaliyyət göstərdiyi 20 il ərzində burada Azərbaycanın əhali tarixinə və MDB məkanındakı Azərbaycan diasporunun formalaşması və fəaliyyəti tarixinə dair dissertasiya işləri müdafiə olunmuş, monoqrafiyalar yazılmışdır[1].

Azərbaycanda tarixi-demoqrafiya elmi məktəbinin əsasını qoymuş görkəmli tarixçi-demoqraf K.Şükürovun tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Onun bu məsələlərə həsr olunmuş çoxsaylı tədqiqatları arasında 1997-ci ildə nəşr olunmuş və tarixi-demoqrafiya problemlərini öyrənməyə başlayan tədqiqatçılar üçün əlifba rolu oynayan «Biblioqrafik göstərici»sini ayrıca göstərmək lazımdır. K.Şükürov bu kitabında Azərbaycan əhalisi haqqında topladığı və ən çüzi məlumatların belə əks olunduğu ədəbiyyatın tarixi dövrlər üzrə təsnifatını vermişdir[2] .

Tədqiq etdiyimiz mövzuya dair bir sıra ümumi məsələləri araşdırmaq üçün tarixi-demoqrafik ədəbiyyatı həm xronoloji, həm də məzmun etibarilə iki yerə bölmək olar: sovet və müstəqillik dövründə – çap olunmuş tədqiqat işləri. Tarixçi-demoqraf K.K.Şükürov «Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları» adlı əsərində Azərbaycan demoqrafiyasının müasir mərhələsini aşağıdakı kimi dövrləşdirmişdir: 1) 1970-ci illərin ortaları – 1990-cı illərin əvvəlləri; 2) 1990-cı illərin əvvəllərindən bizim günədək. 1970-cı illərin ortaları – 1990-cı illərin əvvəllərində Azərbaycan SSR SSRİ-nin tərkibində

---

[1] Вердиева Х.Ю. Население Северного Азербайджана в первой половине XIX века. Баку, 1992; Э.М.Лятифова Северо-Западный Азербайджан:Илисуйское султанство. Баку, Алтай, 1999, 152 с; Х.Ю.Вердиева. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – нач. XX вв.) (историко-демографическое исследование). Баку: 1999, 300 с.; Cavadova Z. Şimal-Qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası (XIX əsrin əvvəllərin – 70-ci illər). Bakı: 2002; İbişov S.Ə. Quba xanlığının əhalisi (tarixi-demoqrafik tədqiat). Bakı: Bakı Universiteti nəşriyyatı, 2004, 208 s.; Quliyev N.Ə. Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı,2006; Hacıəli Ş. Şimalı-Gərbi Azərbaycan: İngiloylar. ( I kitab: ən gədim zamanlardan XIII əsrin ortalarınədək). Bakı,Təhsil, 2007. 277 s.; Kazımov İ.F. Naxçıvan: əhalisi: sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər).Bakı, 2007; Arzu Əşrəf qızı. Car-Balakən camaatlığı. Bakı, “UniPrint” nəşriyyatı, 2009, 256 s.; Г.Т.Новрузова. Азербайджанская диаспора Российской Федерации: проблемы исторической демографии (1989-2002 гг.). Автореф. дис. д.ф.и.н, 2010.

[2] Şükürov K.K. Biblioqrafik göstərici. Bakı: BDU-nun nəşri, 1997, 357 s.

olduğundan Azərbaycan demoqrafiyası sovet demoqrafiyasının tərkib hissəsi kimi inkişaf etməkdə idi[1]. Bu baxımdan bir sıra ümumi məsələlərin araşdırılarkən həmin əsərdən istifadə olunmuşdur.

K.K.Şükürovun 2001-ci ildə BDU-nun nəşriyyatında çapdan çıxmış «Demoqrafiya. Ensiklopedik lüğət» əsəri isə Azərbaycanda demoqrafiyaya dair lüğət hazırlanması işində ilk cəhddir[2]. Lüğətdə Ümumdünya, o cümlədən Rusiya və SSRİ üzrə əhalini öyrənən 250 müəllifin adı çəkilmişdir.

K.K.Şükürovun tarixi demoqrafiya sahəsində ən uğurlu işi doktorluq dissertasiyası əsasında yazılmış «Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (ən qədim zamanlardan müasir dövrədək)» adlı monoqrafiyasıdır. 2004-cü ildə «Elm» nəşriyyatında çap edilmiş 979 səhifəlik bu əsər üç fəsil, nəticə, qeydlər, biblioqrafiya və əlavələrdən ibarətdir.

Kitabda Azərbaycan əhalisinin öyrənilməsi tarixi araşdırılmış, onun dövrləri müəyyənləşdirilmişdir.

Tədqiq edilən mövzu ilə bilavasitə bağlı tədqiqatlar aparan digər bir tarixçi L.Həsənovadır. Onun 2003-cü ildə çapdan çıxan «Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında»[3] adlı əsərində Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq əhali haqqında ən mühüm qaynaq hesab edilən əhali siyahıyaalmaları hərtərəfli şəkildə araşdırılmışdır (I fəsil).

L.Həsənovanın məqalələri arasında müstəqillik dövründə Azərbaycanda əhalinin uşaq və gənclər təbəqəsinin vəziyyətinə, MDB və postsovet məkanında yaranmış türk respublikalarındakı demoqrafik duruma həsr edilmiş məqalələri xüsusi qeyd etmək istərdk. Həmin məqalələr tədqiqat zamanı bizim tərəfimizdən də nəzərə alınmışdır[4].

---

[1]Şükürov K.K. Azərbaycan əhalisi: Öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: Elm 2004, 974 s.

[2] Şükürov K.K. Demoqrafiya. Ensiklopedik lüğət. Bakı: BDU-nun nəşri, 2001, 442 s.

[3] Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında. Bakı: BDU, 2003, 301 s.

[4]Həsənova L.L. Müstəqillik dövründə Cənubi Qafqaz respublikalarının əhalisi // Bakı Univesitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2007, №3, s.105-110; Yenə onun. Azərbaycan Gəncləri müstəqillik dövründə//Dirçəliş, XXI əsr, 114/115, 2007, s.367-372; yenə onun. Cənubi Qafqaz respublikalarında demoqrafik durumun bəzi problemləri // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, 2007, №3, s.36-40; yenə onun. MDB dövlətlərinin demoqrafik göstəriciləri//Dirçəliş XXI əsr, 128/129, 2008, s.320-323; Post sovet məkanında yaranmış türk dövlətlərinin əhalisi//Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, 2008, №4, s.221-224; yenə onun. Azərbaycan uşaqları: tarixi demoqrafik təsvir (1991-2007-ci illər) // Bakı

Azərbaycan əhalisinin öyrənilməsinin kompleks şəkildə həyata keçirilməsi üçün əhalinin inkişafının siyasi və sosial iqtisadi zəmini də müəyyənləşdirilməlidir. Bu baxımdan İ.Zeynalovun, O.Sultanovun, Ə.Məmmədovun tədqiqatları qeyd olunmalıdır.

A.Yunusovun 1999-cu il siyahıyaalması əsasında Azərbaycan əhalisinin etnik tərkibinə həsr edilmiş araşdırmasında Azərbaycanda yaşayan etnik qrupların hər biri haqqında ayrıca məlumat vermiş, onların yerləşməsi və artım sayını təhlil etmişdir. Məsələn, müəllif ləzgi əhaliyə dair verilən statistik rəqəmlərlə razılaşmır. Onun yazdığına görə, "1999-cu il siyahıyaalması göstərdi ki, ləzgilərin say və faiz nisbəti mahiyyətcə dəyişməz qalıb: 178 min nəfər ləzgi və ya ölkə əhalisinin 2,2 %-i qeydə alınmışdır. Lakin çətin ki, bu məlumat ləzgilərin həqiqi sayını əks etdirsin. Bizim ölkənin şimal-şərq rayonlarında 1994-1998-ci illərdə apardığımız araşdırmalar göstərir ki, əslində Azərbaycanda ləzgilərin sayı 250-260 min nəfər arasında tərəddüd edir. Bu və ya digər şəkildə olsa belə qeyd etməliyik ki, hal hazırda 1999-cu il siyahıyaalmasına əsasən ləzgilər Azərbaycanda azərbaycanlılardan sonra ikincidirlər".

Müstəqillik illərində Azərbaycanda yaşayan xalqların etnik inkişafı, ənənəvi adət-ənənələrinin bərpasının əsas xüsusiyyətləri tədqiq olunmuşdur və bu araşdırmalar davam etdirilir. Burada R.Hüseynovun "Udinlər"[1], Q.Cavadovun "Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik)[2], N.Quliyevanın "Azərbaycan tatlarının ailə məişəti və mənəvi mədəniyyəti"[3], R.Mobilinin "Udinlər: dil, din və etnoqrafiya"[4] adlı monoqrafiyalarını qeyd etmək olar. Azərbaycanda yaşayan azsaylı xalqlara həsr olunmuş "Azərbaycan və Azərbaycanlılar dünyada"[5] adlı kulturoloji jurnal da nəşr olunur.

Bir sıra elmi-nəzəri, metodoloji problemləri təhlil edərkən L.P.Xarçenkonun

---

Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2009, №4, s.84-89; yenə onun. Azərbaycan əhalisinin miqrasiyasının bəzi problemləri (1990-2009-cu illər) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2011, №2, s.97-102.

[1] Cavadov Q., Hüseynov R.Udinlər.Bakı,1999.

[2] Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik)-Bakı,2000.

[3] Quliyeva N. Azərbaycan tatlarının ailə məişəti və mənəvi mədəniyyəti.Bakı, 2005, 168s.

[4] Мобили Р. Удины: язык, религия и этнография. Баку, 2011. 80 с.

[5] Азербайджан и Азербайджанцы в мире. Культурологический журнал. № 2, 2009.ISBN-978-9952-8094-6-6. Баку, «GNS POLIQRAF».

«Demoqrafiya» əsərindən də istifadə edilmişdir [1].

Beləliklə, tədqiqat mövzusunun tarixşünaslığına dair ədəbiyyatın təhlili göstərir ki, bu mövzunun ayrı-ayrı məsələləri müəyyən məqalələrin, araşdırmaların mövzusu olsa da, kompleks şəkildə tədqiqat obyekti olmamışdır

**Tədqiqatın mənbə bazası.** Tədqiqatın qarşıya qoyduğu məqsəd və vəzifələri yüksək elmi səviyyədə həyata keçirmək üçün qaynaqlar böyük rola malikdir. Azərbaycan Respublikasında demoqrafik proseslər (1991-2009-cu illər) mövzusu həmin problemlə bağlı qaynaqların qruplaşdırılmasını tələb edir. Bu mövzu ilə bağlı qaynaqları bir neçə qrupa bölə bilərik: 1. əhalinin ümumi siyahıyaalma materialları, 2. demoqrafik-statistik qaynaqlar, 3. problemin qanunvericilik bazasının sənədləri.

Dissertasiyanın mövzusuna uyğun olaraq tədqiqatın başlıca qaynağı əhalinin ümumi siyahıyaalma materiallarıdır. Tədqiqatda tez-tez müraciət edilən materiallardan biri 1989-cu il siyahıyaalmasıdır. Düzdür, dissertasiyada tədqiqat obyekti kimi Azərbaycanın öz müstəqilliyini bərpa etməsinin başlanğıcı götürülür, lakin tarixi demoqrafik proseslərin öyrənilməsi müqayisəsiz həyata keçirilə bilməz. Bu baxımdan tədqiqatımızda 1989-cu il siyahıyaalma materiallarından geniş istifadə edilmişdir. Qeyd edək ki, SSRİ-nin dağılması, qarşılıqlı əlaqələrin pozulması, iqtisadi dağınıqlıq əvvəlcədən nəzərdə tutulduğu kimi bu siyahıyaalmanın nəticələrinin nəşrinə imkan vermədi. Ona görə də biz tədqiqatımızda 1989-cu il siyahıyaalmasının məhdud şəkildə nəşr olunmuş yekun materiallarından istifadə etmək məcburiyyətində qaldıq. Buraya 1989-1990-cı illərdə əhalinin sayı, milli tərkibi, ailə vəziyyəti, təhsili və s. haqqında müxtəlif buraxılışlar, o cümlədən 1989-cu il siyahıyaalmasının Azərbaycan SSR üzrə bəzi yekunlarının ümumi statistik məcmuədə çap olunmuş materialları da daxildir[2] .

BMT-nin tövsiyəsi ilə hər on ildən bir keçirilən siyahıyaalmalar sosial-demoqrafik proseslərin müşahidə olunması və proqnozlaşdırılması üçün geniş imkanlar yaradır [3]. SSRİ-nin dağılması və Azərbaycanın müstəqillik əldə etməsindən sonra mövcud olan bütün obyektiv çətinliklərə baxmayaraq, gənc respublikamızın tarixində ilk siyahıyaalma Azərbaycan Respublikasının

---

[1] Харченко Л.П. Демография. Учебное пособие. М.: Омега-Л, 2007, 348 с.

[2] Население Азербайджанской Республики. Стат. сб. Баку: Госком.Азер.Рес. по статистике, 1991, 313 с.; Население СССР. По данным Всесоюзной переписи населения 1989 г., М.: Финансы и статистика, 1990, 47 .

[3] Azərbaycan əhalisi 2010 (statistik bülleten). Bakı: ARDSK, 2010, 109 s.

Prezidenti H.Əliyevin 22 fevral 1996-cı il tarixli 442 saylı sərəncamına əsasən 1999-cu il yanvarın 27-dən fevralın 3-dək keçirildi. Müqayisə üçün qeyd edək ki, SSRİ dağıldıqdan sonra qonşu Rusiya və Gürcüstanda əhalinin ümumi siyahıyaalması 2002, Ermənistanda isə 2001-ci ildə keçirilmişdi [1].

1999-cu il siyahıyaalmasının nəticələri 2000-2001-ci illərdə «Səda» nəşriyyatı tərəfindən 9 hissədə nəşr edilmişdir. Birinci hissə (3 kitab) – əhalinin sayı və yerləşməsinə, cins və yaş tərkibinə görə bölgüsünə, nikah vəziyyətinə, ikinci hissə (4 kitab) – əhalinin cins, yaş tərkibi və təhsil səviyyəsinə, təhsil müəssisələrində oxuyan əhalinin cins tərkibi və yaş qrupları üzrə bölgüsünə, təhsil müəssisələrində oxumayan əhalinin təhsil səviyyəsinə, üçüncü hissə (7 kitab) – qadınların nikah vəziyyəti və doğulan uşaqların sayı, qadınların yaşı, təhsil səviyyəsi və doğulan uşaqların sayına, dördüncü hissə – əhalinin milli tərkibinə, beşinci hissə – əhalinin yaşayış üçün gəlir mənbələrinə, altıncı hissə – əhalinin iqtisadi aktivlik statusuna görə bölgüsünə, yeddinci hissə – əhalinin məşğulluq vəziyyətinə, səkkizinci hissə – ev təsərrüfatına, doqquzuncu hissə – əhalinin mənzil şəraitinə həsr edilmişdir ki, biz də tədqiqat prosesində bu materiallardan geniş istifadə etmişik. İki əsrin qovşağında keçirilən bu siyahıyaalma «… 1989-cu ildən sonrakı on il ərzində ölkədə gedən sosial-iqtisadi və siyasi proseslərlə bağlı cəmiyyətdə baş verən hadisələr nəticəsində yaranmış sosial demoqrafik vəziyyəti öyrənmək üçün əsaslı məlumat bazasıdır» [2].

---

[1] Содружество Независимых Государств в 2004 году. Статистический ежегодник. М.: Межгосударственный статистический комитет Содружества Независимых Государств, 2005, 661 с.

[2] Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. I hissə. 1. Əhalinin sayı və yerləşməsi. 2. Əhalinin cins və yaş tərkibinə görə bölgüsü. 3. Əhalinin cins, yaş tərkibi və nikah vəziyyətinə görə bölgüsü. Bakı: Səda, 2000, 565 s.;Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. II. I hissə. Əhalinin cins, yaş tərkibi və təhsil səviyyəsi. Bakı: Səda, 2000, 744 s.;Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. II. 2 hissə. Təhsil müəssisəsində oxuyan əhalinin cins tərkibi və yaş qrupları üzrə bölgüsü. 2. Təhsil müəssisəsində oxuyan əhalinin cins, yaş tərkibi və təhsil səviyyəsi. 3. Təhsil müəssisələrində oxumayan əhalinin təhsil səviyyəsi. Bakı: Səda, 2000, 620 s.;Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. III. I hissə. 1. Qadınların nikah vəziyyəti və doğulan uşaqların sayı. 2. Qadınların yaşı, təhsil səviyyəsi və doğulan uşaqların sayı. 3. Təhsil müəssisəsində oxuyan qadınların sayı. Bakı: Səda, 2000, 620 s.;Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. III. 2 hissə. 1. Qadınların yaşına və doğulan uşaqların sayına görə bölgüsü. 2. Millətlər üzrə qadınların yaş qrupları və doğulan uşaqların sayı. 3.

Dissertasiyanın xronoloji çərçivəsini tamamlayan əsas qaynaqlardan biri 2009-cu ildə Azərbaycan Respublikasında keçirilən əhali siyahıyaalmasının materiallarıdır. Müstəqil Azərbaycanda keçirilən sayca bu ikinci siyahıyaalma Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 7 iyun 2006-cı il tarixli 415 saylı fərmanına əsasən 2009-cü il aprelin 13-dən 22-dək keçirilmişdir. 2009-cu il siyahıyaalması öz proqramının əhatəliyi və nəticələrinin nəşrinə görə özündən əvvəlki siyahıyaalmalardan daha mükəmməldir. Bu siyahıyaalmanın nəticələri XXIII cilddə çap edilmişdir. Bundan əlavə, 2011-ci ildə ARDSK tərəfindən (Azərbaycan və ingilis dillərində) həmin siyahıyaalmanın ilkin, qısa nəticələrindən bəhs edən iki cild də nəşr edilmişdir[1] .

2009-cu il siyahıyaalma zamanı 29 sualı əhatə edən sorğu vərəqi ilə yanaşı, «mənzil şəraiti» adlı (yalnız birinci yazılmış şəxs üçün) əlavə bir vərəq də qoyulmuşdur. Bu vərəqdə yaşayış binasının növü, mənzilin mənsubiyyəti, abadlığı, sahəsi və s. üzrə 6 sual qoyulmuşdur ki, (1999-cu ildə 4 sual) bu da əhalinin yaşayış vəziyyətini öyrənmək məqsədi daşıyır. Sorğu vərəqində diqqət yetirilən məsələlərdən biri də miqrasiyadır. Miqrasiyaya aid suallar 12-17-ci bəndləri əhatə edir. Bu əlbəttə ki, son zamanlar daxili və xarici miqrasiyanın ölkə üçün xüsusi önəm daşımasından irəli gəlir. Azərbaycan üçün son dərəcə aktual olan qaçqın və məcburi köçkün statusu almış şəxsləri müəyyənləşdirmək üçün xüsusi sual ayrılmışdır. 16-cı sual – qaçqınsızmı? yaxud məcburi köçkünsüzmü? sualı bu məsələyə həsr edilmişdir.

Əhalinin məşğulluq səviyyəsinin müəyyənləşdirilməsi və işləməyən

---

Ayrı-ayrı millətlər üzrə qadınların yaş tərkibi, təhsil səviyyəsi və doğulan uşaqların sayı. 4. Şəhər və rayonlar üzrə qadınların sağ qalan uşaqlarının sayına görə bölgüsü. Bakı, Səda, 634 s.; Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. IV hissə. Əhalinin milli tərkibi. Bakı, Səda, 2001, 582 s.;Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. V hissə. Əhalinin yaşayış üçün gəlir mənbələri. Bakı: Səda, 2001, 842 s.;Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. VI hissə. Əhalinin iqtisadi aktivlik statusuna görə bölgüsü. Bakı: Səda, 2001, 856 s.;Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. VII hissə. Əhalinin məşğulluq vəziyyəti. Bakı: Səda, 2001, 820 s.; Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. VIII hissə. Ev təsərrüfatı. Bakı: Səda, 2001, 660 s.;Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıya alınmasının yekunları. IX hissə. Əhalinin mənzil şəraiti. Bakı: Səda, 2001, 612 s.

[1] Əhalinin siyahıyaalması 2009: 2 cilddə, I c., Bakı: ARDSK, 2011, s.563.; Əhalinin siyahıyaalması 2009: 2 cilddə, II c., Bakı: ARDSK, 2011, s.586.

əhalinin işlə təmin edilməsi hazırda müxtəlif dövlət orqanlarının qarşısında duran mühüm vəzifələrdən biridir. Bunu sorğu vərəqini nəzərdən keçirdikdə asanlıqla görmək olar. 2009-cu il siyahıyaalması zamanı bu məsələyə 6 sual (22-28-ci suallar) həsr olunmuşdur. Halbuki, 1999-cu il siyahıyaalmasında bu məsələyə ilə bağlı sualların sayı 3 idi (15-17-ci suallar).

Siyahıyaalmalar əhali haqqında ən dolğun məlumat verən mənbədir. Bu baxımdan siyahıyaalma materialları həm bütövlükdə ölkə, həm də regionlar üçün mühüm əhəmiyyətə malikdir[1] .

Azərbaycanda gedən demoqrafik prosesləri öyrənmək üçün istifadə edilən qaynaqların ikinci mühüm qrupu Dövlət Statistika Komitəsi tərəfindən buraxılan «Azərbaycan əhalisi» adlı illik statistik bülletenlərdir. 2001-ci ildən nəşr edilən bu statistik bülletenlərdə əhalinin son siyahıyaalmasının yekunları əsasında cari hesabatlar aparılır.

Dissertasiyanın mənbə bazasını təşkil edən digər bir mənbə isə Birləşmiş Millətlər Təşkilatının əhali fondu və Azərbaycan Respublikası Dövlət Statistika komitəsi tərəfindən buraxılan «Azərbaycanın Demoqrafik Göstəriciləri» adlı statistik məcmuədir. Hər il buraxılan bu məcmuələr əhalinin siyahıyaalması komitəsinin materialları, sayı və yaş-cins tərkibinin cari qiymətləndirilməsi, dövlət statistika materialları əsasında hazırlanır. Adından göründüyü kimi bu statistik məcmuələrdə Azərbaycanın demoqrafik durumuna dair illik məlumatlar verilir. Həmin məlumatlar səkkiz bölmədə: 1) əhalinin sayı və tərkibi; 2) əhalinin təkrar istehsalının ümumi göstəriciləri; 3) nikah və boşanmalar; 4) doğum; 5) ölüm; 6) səbəblər üzrə ölüm; 7) miqrasiya; 8) beynəlxalq müqayisələr, qruplaşdırılmışdır ki, biz də tədqiqat prosesində onlardan geniş istifadə etmişik.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin buraxdığı «Azərbaycanda ailələr» adlı statistik məcmuədə verilmiş səkkiz bölmədən «Ailələrin demoqrafik xüsusiyyətləri» adlı birinci bölməsi bizim tədqiqat obyektimizlə bilavasitə bağlıdır. Burada əhalinin cins və yaş qrupu üzrə sayı, hər 1000 kişiyə düşən qadınların sayı, doğulanda gözlənilən ömür uzunluğu, nikaha daxil olanların orta yaşı, bəy və gəlinin yaşına görə nikahlar, ailələrin ailə üzvlərinin sayına görə bölgüsü və s. haqqında xeyli miqdarda ilk mənbələrdən götürülən materiallar verilmişdir .

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 289 nömrəli fərmanına uyğun olaraq ARDSK «Azərbaycanda qadınlar və kişilər» adlı illik statistik məcmuə nəşr etdirmişdir. BMT-nin Əhali fondunun dəstəyi ilə çap

---

[1] Əhalinin siyahıyaalması 2009: 2 cilddə, II c., Bakı: ARDSK, 2011, 586 s.

olunan bu məcmuənin birinci bölməsi əhaliyə həsr edilmişdir.

ARDSK-nin 2001-ci ildən nəşrinə başladığı «Azərbaycan Regionları» adlı statistik məcmuədə regionların 1995-2000-ci illərə dair göstəricilərilə yanaşı əhalinin sıxlığı, cinsi, yaş, milli tərkibi, təhsil səviyyəsinə və s. dair xeyli materiallar toplanılmışdır.

Azərbaycanda gedən demoqrafik proseslər barədə tam təsəvvür yaratmaq üçün, qonşu dövlətlərin müvafiq göstəriciləri ilə müqayisələr aparılmalıdır. Bu baxımdan Rusiya Elmlər Akademiyası və Dövlət statistikasının federal xidməti tərəfindən buraxılmış illik demoqrafik məcmuələrdə və buraxılışlarda verilmiş məlumatlardan istifadə edilmişdir. Bundan əlavə MDB Dövlətlərarası Statistika Komitəsi, Ukrayna Dövlət Statistika Komitəsi, Moldova Respublikasının Milli Statistika bürosu, Gürcüstanın İqtisadi İnkişaf Nazirliyinin Dövlət Statistika Departamenti, Ermənistan Respublikası Dövlət Statistika Nazirliyinin ARDSK ilə birlikdə hazırladıqları məcmuələrdəki materiallardan da müqayisələrdə istifadə edilmişdir[1].

Tədqiqatlarda Azərbaycan Respublikasının dövlət strukturlarının internet resurslarından da istifadə edilmişdir: Azərbaycan Respublikasının qaçqınlar və məcburi köçkünlərlə iş üzrə Dövlət Komitəsi http://www.refugees-idps-committee.gov.az/; Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi http://www.mns.gov.az/; Azərbaycan Respublikası Dövlət miqrasiya xidməti http://migration.gov.az/; Dövlət Statistika Komitəsi http://www.azstat.org/ və b.

**Tədqiqatın məqsəd və vəzifələri** dissertasiyanın tədqiqat istiqamətini və strukturunu müəyyənləşdirir. Tədqiqatın əsas məqsədi Azərbaycanın müstəqillik əldə etməsindən əhalinin 2009-cu il ümumi siyahıyaalınmasınadək olan dövrdə ölkədə gedən demoqrafik prosesləri mövcud ilk mənbələr və elmi ədəbiyyatın müqayisəli təhlili əsasında araşdırmaq, bu məsələdə tarixi demoqrafik ədəbiyyatda mövcud olan boşluğu aradan qaldırmaq, ölkədə formalaşmış demoqrafiya və onun tərkib hissəsi olan miqrasiya siyasətini elmi cəhətdən əsaslandırmaqdan ibarətdir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri həyata keçirmək nəzərdə tutulmuşdur: SSRİ-nin dağılması, Ermənistanın Azərbaycana təcavüzü, müstəqilliyin bərpa edilməsi dövründə Azərbaycanın

---

[1] Страны ГУАМ 2007. Статистический сборник. Баку: Госкомстат, 2007, 244 с.; Статистический ежегодник Южно-Кавказских стран Армения, Азербайджан, Грузия. 2000. Баку: Госкомстат АР, 2000, 423 с.

demoqrafik durumunda baş vermiş dəyişikliklərin müqayisəli təhlili; Tədqiq edilən dövrdə Azərbaycan əhalisinin say dinamikasını, onda baş verən dəyişiklikləri və təsir amillərini xarakterizə etmək; Əhalinin yerləşməsi və onun növləri, Azərbaycanda urbanizasiya problemi; əhalinin yaşayış məntəqələrinin tiplərinə görə yerləşməsi, əhalinin sıxlığı və onun başqa dövlətlərlə müqayisəsi, regionlar üzrə əhalinin yerləşməsi; Əhalinin cins tərkibinin və son zamanlar onda baş verən dəyişikliklərin öyrənilməsi; Əhalinin yaş - cins tərkibinin öyrənilməsi və müqayisəli təhlili; Orta ömür uzunluğunun müəyyənləşdirilməsi və Azərbaycan əhalisinin demoqrafik qocalma göstəricilərinin faktiki materiallar əsasında tədqiqi; XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində əhalinin milli tərkibində baş verən dəyişikliklər, onun səbəbləri, istiqamətləri və son 20 ilin əhali problemləri arasında xüsusi çəkisi; ölkədə doğumun dinamikası və onda baş verən dəyişikliklərin regionlar üzrə təhlili, doğuma təsir edən amillər; respublikada nikah və boşanmanın say dinamikasını və onların doğuma təsiri mexanizmini müəyyənləşdirmək; ölüm, bir yaşa qədər körpə ölümü, onun göstəriciləri, ölümün səbəblərinin klassifikasiyası, ölümün ümumi əmsalı; əhalinin təbii hərəkəti və təkrar istehsalı, onun müqayisəli təhlili.

**Dissertasiyanın metodoloji əsası**. Dissertasiya tarixi-demoqrafik aspektdə yazıldığından tədqiqatın gedişində tarix və demoqrafiya elmlərinin müxtəlif metodlarından: tarixi-genetik, tarixi müqayisə, demoqrafiyanın əmsalları – istifadə edilmişdir. Mövzu araşdırılarkən tarixilik, elmilik, obyektivlik, tənqidi yanaşma, əsas prinsip kimi götürülmüşdür. Tədqiqat zamanı qarşıya qoyulan məqsədə çatmaq üçün tarixi-demoqrafiya elmində qəbul edilmiş düsturlardan geniş istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Müstəqillik dövründə Azərbaycanda gedən demoqrafik proseslərin tədqiqinə cəhd edilmişdir ki, bu da bütövlükdə tarix elmində yenilikdir. Ümumiyyətlə elmi-tədqiqat işi bir sıra elmi yeniliklərlə xarakterizə edilir: Müstəqillik əldə ediləndən sonra respublikada keçirilən ikinci əhali siyahıyaalmasına qədərki dövrdə ölkədə gedən demoqrafik proseslər ilk dəfə kompleks şəkildə tədqiq edilmişdir; əhali haqqında başlıca mənbə hesab edilən və müstəqillik dövründə keçirilən 1999-2009-cu il əhalinin ümumi siyahıya almaları hərtərəfli xarakterizə edilmiş və onun materialları elmi dövriyyəyə cəlb edilmişdir; elmi dövriyyəyə yeni cəlb edilən faktiki materiallar əsasında əhalinin say dinamikası və yerləşməsinə təsir edən faktorlar tədqiq edilmişdir; mövcud demoqrafik durumu səciyyələndirən amillər Rusiya, MDB-yə daxil olan dövlətlərin və Cənubi Qafqaz respublikalarının müvafiq göstəricilərilə müqayisə edilmişdir; əhalinin tərkibi:

cins, yaş, yaş və cins, milli – demoqrafik statistik materiallar əsasında təhlil edilmiş, baş vermiş dəyişikliklərin səbəbləri araşdırılmış, müstəqillikdən öncəki vəziyyətlə müqayisə edilmişdir; əhalinin orta ömür uzunluğu, bu sahədə cinslər arasındakı fərqlər araşdırılmış, əhalinin demoqrafik qocalmasına dair materiallar təhlil edilmişdir; əhalinin təbii təkrar istehsalına təsir göstərən əsas amillər: doğum, ölüm və onların dinamikası xarakterizə edilmişdir; daxili və xarici miqrasiya rəsmi statistik məlumatlar əsasında təhlil edilmiş və dövlətin demoqrafik durumunu yaxşılaşdırmaq məqsədilə yeritdiyi əhali siyasəti təhlil edilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti**. Dissertasiya işində irəli sürülən müddəalar, çıxarılan nəticələr demoqrafik duruma aid olan materiallardan tərtib olunmuş çoxsaylı cədvəllər, elmi dövriyyəyə ilk dəfə daxil edilmiş faktiki materiallar monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin yazılmasında istifadə edilə bilər. Son zamanlar nəşr edilmiş elmi əsərlərdə xüsusi bölmə kimi «əhaliyə» yer ayrılır. Ona görə də tədqiqat işi ümumiləşdirilmiş Azərbaycan tarixi kitablarının, eyni zamanda Azərbaycanın əhali tarixinin müvafiq dövrünün yazılmasında, Azərbaycanın tarixi demoqrafiyasına aid mühazirə kurslarının hazırlanmasında, magistraturada xüsusi kursların oxunmasında istifadə oluna bilər. Dissertasiya işində əldə olunan nəticələr yuxarıda sadalananlarla yanaşı, Respublikada həyata keçirilən Demoqrafik İnkişaf Konsepsiyasının daha da təkmilləşdirilməsində, balanslaşdırılmış əhali siyasətinin həyata keçirilməsində, əsaslandırılmış miqrasiya siyasətinin və Dövlət Miqrasiya Proqramının formalaşmasında istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun «Əhali tarixi və tarixi demoqrafiyası» şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas məzmununu əhatə edən müddəalar Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrdə, doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransında və tədris prosesində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya Giriş, 3 fəsil, 6 paraqraf, nəticə, istifadə edilmiş mənbə və ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

# II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi əsaslandırılmış, öyrənilmə səviyyəsi araşdırılmış, mənbə və tarixşünaslıq bazası təhlil olunmuş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, həmçinin metodoloji əsası, elmi yenilikləri və əməli əhəmiyyəti göstərilmişdir.

**Dissertasiyanın "XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Azərbaycan əhalisinin demoqrafik vəziyyəti" adlı I fəsli** iki paraqrafa bölünür. Birinci paraqraf **"XX əsrin 80-ci illərinin sonlarında SSRİ məkanında yaranmış siyasi böhran və Azərbaycanda ictimai-siyasi, iqtisadi və demoqrafik vəziyyət"**, ikinci paraqraf isə **"Əhalinin tərkibində baş verən dəyişikliklər"** adlanır. Bu fəsildə XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində SSRI-də Qorbaçov yenidənqurmasının dalğası ilə başlayan yeni ictimai-siyasi hərəkatın və yeni təfəkkürün başlanğıcı, yeni siyasi liderlərin və müxalif qüvvələrin, müttəfiq respublikalarla mərkəzi hakimiyyət arasında yeni münasibətlərin formalaşması kimi silsilə hadisələr zənciri təhlil edilir.

Qeyd edək ki, "qardaş respublikalar" arasında başlayan etnik münaqişələr, Baltikyanı və Cənubi Qafqaz respublikalarındakı milli hərəkat, mərkəzdən ayrılmanı və müstəqil respublikaların yaranmasını tələb edən qeyri-formal qruplaşmaların fəaliyyəti SSRİ-nin dağılmasını daha da sürətləndirdi.

SSRİ-nin yenidənqurma dövrü yalnız yeni təfəkkür dövrü deyil, bu vahid xalq təsərrüfatı sisteminin dağılması, əhalinin bir respublikadan digərinə, daha doğrusu iqtisadi cəhətdən daha inkişaf etmiş və etnik münaqişənin olmadığı respublikalara kütləvi miqrasiyası dövrüdür. Əlbəttə bu hadisələr əhalinin demoqrafik xarakteristikasına təsirsiz ötüşməmiş deyildi. Məhz həmin dövrdə qaçqınlar və məcburi köçkünlər ortaya çıxdı, etnik münaqişələrin ilk qurbanları yarandı, kütləvi miqrasiyalar başladı. 1989-cu il siyahıyaalması artıq Azərbaycan SSR-də Ermənistan SSR-dən deportasiya olunmuş azərbaycanlılar var idi. Ermənistanın Azərbaycana ərazi iddiası, qaçqın və məcburi köçkünlər, Dağlıq Qarabağ Muxtar Vilayət rəhbərlərinin vilayətin Azərbaycan SSR-nin tərkibindən ayıraraq Ermənistan SSR-ə birləşdirməsini elan etmələri, Əsgəran rayonunda bu münaqişənin ilk qurbanları əlbəttə ki, Azərbaycan əhalisinin keyfiyyət və kəmiyyət dəyişikliklərinə təsir göstərdiyi kimi, siyahıyaalmanın obyektivliyinə də öz təsirini göstərdi.

Erməni hərbi birləşmələri tərəfindən 1988-1993-cü illərdə Dağlıq Qarabağ, o cümlədən 1992-ci il mayın 8-də Şuşa, mayın 18-də Ermənistanı Dağlıq

Qarabağla birləşdirən, ən qısa və rahat yol hesab edilən, uzunluğu 30 km olan Laçın dəhlizinin yerləşdiyi Laçın, 1993-cü ilin aprelin 2-də Kəlbəcər, iyunun 23-də Ağdam, avqustun 23-də Cəbrayıl və Füzuli, avqustun 31-də Qubadlı, oktyabrın 29-da isə Zəngilan işğal edildi[1] . Ümumilikdə erməni hərbi birləşmələri Azərbaycan ərazisinin 17 min $km^2$-ni işğal etmişdir. Beləliklə, ermənilərin 1988-ci ildən başlayan təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20%-i işğal olundu. Bundan başqa respublikamızın Ermənistanla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasının və Qazax, Tovuz, Gədəbəy, Ağstafa, Goranboy, Tərtər və başqa rayonların sərhədyanı yaşayış məntəqələri də ermənilər tərəfindən ya işğal olunmuş, ya da onların nəzarəti altındadır. Nəticədə, həmin ərazilərdə olan 890 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 695 səhiyyə ocağı, 855 uşaq bağçası, 927 kitabxana, 10 minlərlə tarixi abidə, muzey, məscid, sənaye və kənd təsərrüfatı müəssisəsi və s. ermənilər tərəfindən qəsb edilmiş, dağıdılmış, məhv edilmişdir. Təxmini hesablamalara görə erməni təcavüzü nəticəsində Azərbaycan Respublikasına 60 milyard ABŞ dolları həcmində ziyan dəymişdir[2] .

Ermənistanın başladığı elan olunmamış müharibə, respublikanın iqtisadi potensialının aşağı düşməsi, bu hadisələrin fonunda rusdilli əhaliyə münasibətin dəyişməsi və s. əhalinin Azərbaycandan nisbətən daha stabil vəziyyətin olduğu respublikalara və xarici ölkələrə miqrasiyasına təkan verdi.

Azərbaycanın müstəqilliyinin bərpası ərəfəsində, SSRİ və respublika ərazisində gedən siyasi proseslər, hərbi münaqişə demoqrafik proseslərə gətirib çıxartdı[3] **.**

Rəsmi məlumatlara görə, 1988-1990-cı illərdə Ermənistandan gələn qaçqınların sayı 200 min nəfəri keçmişdi. SSRİ prokurorluğunun məlumatlarına görə, Ermənistandan qovularkən 216 nəfər azərbaycanlı öldürülmüşdü ki, onlardan da 57-si qadın, 5-i südəmər uşaq, 18 nəfəri isə müxtəlif yaşlı uşaq idi. Əgər nəzərə alsaq ki, 1989-cu ilin iyulunda Özbəkistanın Fərqanə vilayətində baş verən etnik toqquşmalardan sonra didərgin düşmüş 51 mindən çox Məshəti (Axıska) türkü də Azərbaycana pənah gətirmişdir, onda qaçqınların sayının 250 mindən çox

---

[1] Qarabağ. Suallar və faktlar. Baki:Qismət, 2005, s.44; Краткая информация об истории Карабаха// Из серии «Карабахские реалии» Фонд Гейдара Алиева. Баку: б\и, 2006, 14 с.

[2] Həsənov T. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalın ağır sosial-iqtisadi nəticələri . Bakı : Çaşıoğlu, 2002, s.17-33, 115 s.; Краткая информация об истории Карабаха// Из серии «Карабахские реалии» Фонд Гейдара Алиева. Баку: б\и, 2006, 14 с.

[3] Четвертые периодические доклады государств-участников, подлежавших представлению в 2004 году, Азербайджан, CERD/C/440/Add.1, 19 августа 2004 г.

olması qənaətinə gəlmiş olarıq. Bundan əlavə, Dağlıq Qarabağın 60 min, Laçının 71 min, Kəlbəcərin 74 min, Ağdamın 165 min, Füzulinin 146 min, Cəbrayılın 66 min, Qubadlının 37900, Zəngilanın 39500 nəfər əhalisi işğallar zamanı öz doğma vətənlərində məcburi köçkünə çevrildilər. Ümumilikdə, Dağlıq Qarabağ və onun ətrafında gedən müharibə nəticəsində Azərbaycan ərazisinin 20%-i işğal edilmiş, 20 mindən çox adam həlak olmuş, 50 mindən çox adam əlil olmuş, 1 milyondan çox adam qaçqın və məcburi köçkünə çevrilmişdir.

Ermənistanın elan olunmamış müharibəsi Azərbaycanda əhalinin daha bir kateqoriyasının – itkin və əsir düşmüşlər kateqoriyasının yaranmasına səbəb oldu. 1 yanvar 2011-ci il tarixinə əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4049 nəfər təşkil etmişdir. Onlardan 3273 nəfər hərbçi, 771 nəfər mülki şəxslərdir. 5 nəfərin hərbçi və ya mülki olduğu məlum deyil. Mülki şəxslərdən 47 nəfəri itkin düşərkən yetkinlik yaşına çatmamış uşaq (17 nəfər azyaşlı qız), 247 nəfər qadın, 347 nəfər yaşlı şəxsdir (149 nəfər qadın). Əsir, itkin düşmüş 4049 nəfərdən 878 nəfərin əsir və girov götürülməsi barədə məlumatlar daxil olmuş, şahid ifadələri alınmışdır. 1399 nəfər isə əsir və girovluqdan azad edilmişdir. Onlardan 343 nəfər qadın, 1056 nəfər kişidir. Eyni zamanda 170 nəfər uşaq (65 nəfər azyaşlı qız), 289 nəfər yaşlı şəxsdir (112 nəfər yaşlı qadın).

Dövlət Komissiyasına daxil olmuş materialların təhlili zamanı 553 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblərdən vəfat etdiyi müəyyən edilmişdir. Onlardan 104 nəfər qadın, 448 nəfər kişidir. 137 nəfərin yalnız adı məlumdur, 74 nəfər isə naməlum şəxslərdir”[1].

Tədqiq edilən dövrdə Azərbaycan Respublikası əhalisinin **sayı artaraq** 1991-ci ildəki 7218,5 min nəfərdən 2009-cu ildə 8992,4 min nəfərə çatmışdır. Bu müddət ərzində ən yüksək illik artım əhalinin son siyahıyaalmasında qeydə alınmışdır. 2009-cu ildə Azərbaycan əhalisi 292,5 min nəfər və ya 3,38% artmışdır.

1999-cu ildə Azərbaycanın iqtisadi rayonlarını əhalinin sayına görə sıralasaq, aşağıdakı nəticəni alarıq: Aran, Gəncə-Qazax, Lənkəran, Yuxarı Qarabağ, Şəki-Zaqatala, Quba-Xaçmaz, Abşeron, Naxçıvan, Dağlıq Şirvan, Kəlbəcər-Laçın. 2009-cu il siyahıya alınmasının nəticələrində də, bu sıralamada çox cüzi dəyişiklik (Abşeron iqtisadi rayonu Quba-Xaçmazdan irəli keçir) baş vermişdir.

1999-2009-cu illərdə Abşeron rayonunu çıxmaq şərtilə, qalan bütün

---

[1] Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar statistika. Erməni təcavüzü. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi.- www.mns.gov.az

rayonların əhalisinin artım sürəti əvvəlki 10 ilə nisbətən aşağı düşmüşdür. Bu illərdə ən yüksək artım: 135,9%, - Abşeron rayonunda müşahidə olunmuşdur. Son 10 ildə doğumun və təbii artımın aşağı düşməsi bu regionlarda əhalinin artım tempinə ciddi təsir göstərmişdir. Bu illərdə ən az artım Yuxarı Qarabağda: 104,1%, qeydə alınmışdır.

1989-2009-cu illərdə respublikada əhalinin artım sürəti 112-113% arasında dəyişmişdir. 1989-1999-cu illər arasında Aran, Lənkəran, Quba-Xaçmaz, Naxçıvan, Şəki-Zaqatala iqtisadi rayonlarının əhalisinin artım tempi ümumi respublika göstəricisindən (113,3%) yüksəkdir. 1999-2009-cu illərdə yalnız Abşeron iqtisadi rayonunun əhalisinin artım sürəti orta respublika göstəricisinə yaxın olmuşdur. Yuxarı Qarabağ, Gəncə-Qazax, Şəki-Zaqatala, Quba-Xaçmaz iqtisadi rayonlarının əhalisinin artım sürəti orta respublika göstəricisindən aşağı olmuşdur.

Tədqiq edilən 1991-2009-cu illər ərzində **şəhər əhalisinin sayı** 3858,3 min nəfərdən artaraq 4739,12 min nəfərə çatmış və ya 880,82 min nəfər (22,82%) çoxalmışdır. **Kənd əhalisinin sayı 3360,**2 min nəfərdən 4183,32 min nəfərə qədər yüksəlmiş və ya 823,12 min nəfər (24,49%) artmışdır. Şəhər əhalisi ilə kənd əhalisinin artım sürətindəki fərq 1,67% təşkil etmişdir.

2009-cu ildə respublikada keçirilən əhalinin ümumi siyahıyaalması zamanı şəhər əhalisi içərisində Bakı şəhərinin payı 1,1% azaldığı halda, Gəncə şəhərinin payı 7,9% artaraq 15,3%-ə, Sumqayıt şəhərinin payı isə 8,4%-dən artaraq 15,2%-ə çatmışdır. Bütövlükdə bu üç şəhərin payı, şəhər əhalisinin 73,66 faizini təşkil edir. Şəhər əhalisinin artması başlıca olaraq mexaniki artım hesabına, yəni kənd yaşayış məntəqələrindən gələn əhalinin hesabına olmuşdur.

Əhalinin cins və cins-yaş tərkibi hər hansı bir ərazidə yaşayan əhalinin əsas demoqrafik xüsusiyyətidir.

1991-2009-cu illərdə hər **1000 qadına düşən kişilərin sayını** nəzərdən keçirdikdə, çox da böyük olmayan sabit, ardıcıl artımın şahidi oluruq. Yəni ölkədə kişilərin sayı ilə qadınların sayı arasında fərq getdikcə azalır və buna müvafiq olaraq hər 1000 qadına düşən kişilərin sayı tədricən artaraq 1991-ci ildə 953,9 nəfərdən artaraq, 2009-cu ildə 979,2 nəfərə (+25,3) çatmışdır. Bu göstəriciyə tarixi-demoqrafik ədəbiyyatda cinsəllik əmsalı da deyilir.

Əhalinin demoqrafik anlamda **qocalığın müəyyənləşməsində** müxtəlif tipli göstəricilərdən istifadə edilir. Buna misal olaraq 60 və yuxarı yaşda olanların, əhalinin hər 100 nəfərinə, hər 100 böyüyə (20-59 yaş), hər 100 gəncə (0-19 yaş) nisbətini hesablamaq lazımdır..

1989-2009-cu illər arasında 60 və yuxarı yaşlıların əhalinin hər 100 nəfərinə nisbətində ciddi dəyişikliklər olmamış və bu rəqəm 30 ildə 7,9-9,0 arasında

dəyişmişdir. 60 və yuxarı yaşda olanların hər 100 böyük yaşlıya (20-59 yaş) nisbəti isə kifayət qədər ziddiyyətlidir. 1989-cu ildə bu nisbət 15,9 nəfərdən artaraq, 1999-cu ildə 18 nəfərə çatdı. Lakin, 1999-2009-cu illərdə 60 və yuxarı yaşlı əhalinin hər 100 böyük yaşlıya düşənlərin sayı azalaraq 2009-cu ildə 13, 76 nəfər (-4,42) nəfər olmuşdur. Əksinə, hər 100 Gəncə (0-19 yaş) düşən 60 və yuxarı yaşlıların sayı 1989-cu ildəki 18,4 nəfərdən artaraq 2009-cu ildə 23,7-ə çatmışdır. Böyüklərin (20-59 yaş) bir qocaya, yaşlıya (60 və yuxarı yaş) nisbəti də çoxalmış və 1989-cu ildəki 6,3-dən 2009-cu ildə 7,3-ə çatmışdır.

**“Azərbaycan Respublikasinin əhalisi 1999-cu və 2009-cu il siyahiyaalmalarında”** adlı II fəslin birinci paraqrafi “Əhalinin say dinamikası, yerləşməsi və digər demoqrafik göstəriciləri”, ikinci paraqrafı isə “**Müstəqillik dövründə Azərbaycan Respublikasi əhalisinin milli tərkibi” adlanır.**

Əhalinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də **əhalinin milli - etnik tərkibidir**. Əhalinin milli - etnik tərkibi dedikdə, onun milli və ya etnik mənsubiyyətinə görə bölgüsü nəzərdə tutulur. 2009-cu il əhali siyahıyaalmasının proqramında milli tərkiblə bağlı daha geniş spektrli suallar qoyulmuşdur. Alınan cavablar sistemləşdirilmiş, qruplaşdırılmış və XIX-XXI cildlərdə ayrıca verilmişdir. Onu da qeyd edək ki, milli mənsubiyyət sorğu vasitəsilə birbaşa əhalidən toplanır.

Azərbaycan əhalisinin böyük əksəriyyətini təşkil edən Azərbaycan türkləri, tatarlar, Meshet türkləri Altay dil ailəsinin türk dili qrupuna daxil idi. 1989-cu ildə Azərbaycan əhalisinin 83,4%-i həmin xalqların payına düşürdü. Həmin xalqlar o zaman Azərbaycanda yaşayan əhalinin 5851,3 min nəfərini təşkil edirdilər.Hind-Avropa dil ailəsinin slavyan qrupuna ruslar, ukraynalılar, beloruslar daxil idilər. Onlar SSRİ-nin dağılması və müstəqilliyin bərpa edilməsi ərəfəsində Azərbaycan əhalisinin 424,7 min nəfərini və ya 6,1%-i təşkil edirdilər. İran dil qrupuna talışlar, tatlar, kürdlər daxildirlər. 1989-cu ildə onların sayı 33,4 min nəfər idi ki, bu da ölkə əhalisinin 0,5% demək idi.

Siyahıyaalmanın nəticələrinə görə Hind-Avropa dil ailəsinin erməni qrupuna daxil olan ermənilər həmin ildə Respublikanın ümumi əhalisının 5,6%-i və ya 390,5 min nəfərini təşkil etmişdilər.1989-cu ildə Azərbaycanda yaşayan əhalinin bir hissəsi Qafqaz dil ailəsinə aid olan ləzgi, avar, udin, saxurlardan ibarət idilər ki, onların da ümumi sayı 234,9 min nəfərə və ya ölkə əhalisinin 3,3%-ə bərabər idi. Azərbaycanda yaşayan 14,2 min nəfər (0,2%) gürcü Kartvel, 30,8 min nəfər və ya ölkə əhalisinin 0,4% olan yəhudilər isə Asiya dil ailəsinə mənsub idilər.

***Çox təəssüf ki, Azərbaycanın avtoxton əhalisi olan ingiloylar siyahıyaalmalarda gürcü kimi qeydə alınmışlar. Onların gürcüləşdirilməsinə çar Rusiyasının Qafqazı işğalı dövründə başlanılmış və sonralar da bu siyasət davam etdirilmisdir.*** İki siyahıyaalma dövrü arasında Azərbaycanda azərbaycanlıların , tat, talış və yəhudilərin ümumi sayı artmış, keçmiş SSRİ-nin titul xalqlarının – rusların, ukraynalıların, gürcü və tatarların buradakı sayı isə azalmışdır. Azərbaycanın yerli əhalisi olan udin, avar, kürd və saxurların sayında da azalma qeydə alınmışdır.

Ermənilərin sayına gəldikdə isə qeyd etmək lazımdır ki, 1989-cu il siyahıya alması keçirilərkən Azərbaycan SSR-də 390,5 min erməni qeydə alınmışdı ki, bu həmin dövrdə Azərbaycandan köçənlərin əksər hissəsinin əvvəlki yaşayış yerlərində qeydiyyatda qalmalarılə əlaqədar idi. 1999-2009-cu il siyahıya almaları keçirilərkən ermənilərin sayında ciddi dəyişiklik olmamışdır. Onların sayı müvafiq olaraq 120,7 və 120,3 min nəfərə bərabər olmuşlar[1]. Bu isə onunla baglı idi ki, 1999 və 2009-cu il siyahıyaalmasının materiallarının çap olunduğu çoxcildliyin əvvəlindəki Ön sözdə yazıldığı kimi,: «Azərbaycan Respublikasının keçmiş Dağlıq Qarabağ Vilayəti ərazisində yaşayan erməni millətindən olan vətəndaşlarının sayı əhalinin 1989-cu il siyahıyaalınmasının göstəriciləri əsasında hesablanaraq siyahıya alınmış ölkə əhalisinin sayına əlavə edilmişdir»[2].

Müstəqillik dövründə keçirilən hər iki siyahıyaalma zamanı azərbaycanlıların artım mənbəyi müxtəlif olmuşdur. Belə ki, 1999-cu il siyahıyaalması zamanı azərbaycanlıların sayının artmasına qaçqınlar və onların Azərbaycana gəlməsi təsir göstərdiyi halda, 2009-cu ildə bu, daha çox əhalinin təbii artımı ilə bağlı olmuşdur. 1999-2009-cu illərdə ölkə əhalisi içərisində ermənilərin və rusların payı azalmaqda davam etmişdir. Onlar respublika əhalisinin 1,3%-ni təşkil edirdilər. Maraqlıdır ki, 2009-cu il siyahıyaalmasının nəticələrinə görə talışların xüsusi çəkisi artaraq 1,3% (112,0 min nəfər) olmuşdur. 1999-cu ildə azərbaycanlıların, ləzgilərin, ermənilərin, rusların, avarların, tatarların, ukraynalıların, saxurların, gürcülərin, yəhudilərin, udinlərin, xınalıqların böyük əksəriyyəti, yəni 94,6%-dən 99,7%-dək, öz millətinin dilini ana dili hesab edirdilər.

---

[1] Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında. Bakı: BDU, 2003, 301 s.

[2] Məmmədov İ. Azərbaycan Respublikası əhalisinin say dinamikası və yerləşməsi // Bakı Universiteinin Xəbərləri. Humanitar elmlər seriyası, 2008, №4, s.166-171.

**Dissertasiya işinin III fəsli** "**Azərbaycan əhalisinin təbii hərəkəti**" **adlanır** və iki paraqrafdan ibarətdir.

Tədqiq edilən dövrün başlanğıcından, yəni 1991-ci ildə Azərbaycanın öz müstəqilliyini bərpa etdiyi tarixdən ölkədə 190 353 nəfər doğulmuşdur. Qeyd edək ki, bu 1991-2009-cu illərdə ən yüksək göstərici olmuşdur.1999-2009-cu illərdə doğum üzrə ən aşağı göstərici 2001-2002-ci illərdə qeydə alınmışdır. 2001-ci ildə respublikada 110 356, 2002-ci ildə 110 715 nəfər doğulmuşdur. Yəni, doğum əmsalı 13,8 nəfər olmuşdu. Bu müharibədən sonrakı dövrdə kişilərin ordudan geri qayıtması, pozulmuş ailə münasibətlərinin bərpa olunması, iqtisadiyyatın gözləniləndən daha uzun dövr ərzində canlanması şəraitində doğumun artması, ölümün isə azalması ilə bilavasitə bağlı idi[1] . Azərbaycan Respublikasında hər il üçün hesablanan **doğum əmsalını onun** bütün regionlarına şamil etmək olmaz. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hər il üçün buraxdığı illik «Azərbaycan əhalisi» və «Azərbaycanın Demoqrafik göstəriciləri» adlı statistik məcmuələrdə regionların başqa demoqrafik göstəricilərilə birlikdə, əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı da verilmişdir. Həmin məcmuələrdə verilən faktlara görə 2009-cu ildə Azərbaycanın iqtisadi regionları üzrə doğum əmsalı aşağıdakı kimi olmuşdur: Bakı şəhəri – 16,2; Abşeron iqtisadi rayonu – 13,6; Gəncə-Qazax iqtisadi rayonu – 15,8; Şəki-Zaqatala iqtisadi rayonu – 16,1; Lənkəran iqtisadi rayonu – 20,0;Quba-Xaçmaz iqtisadi rayonu – 17,2; Aran iqtisadi rayonu – 18,1;Yuxarı Qarabağ iqtisadi rayonu – 15,7; Kəlbəcər-Laçın iqtisadi rayonu – 19,7; Dağlıq Şirvan iqtisadi rayonu – 18,4; Naxçıvan iqtisadi rayonu – 19,6. Göründüyü kimi Lənkəran iqtisadi rayonunda əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı (20,0 nəfər) başqa regionlardan daha yüksəkdir. Bu ümumrespublika göstəricisindən 2,8 nəfər çoxdur.

1989-cu il siyahıyaalması zamanı şəhərlərdə **ümumi nikah** əmsalı 9,7 olduğu halda kənd yerlərində 11,3 idi, yəni 1,6 ədəd çox idi. Bütövlükdə ölkədə olduğu kimi şəhər yerlərində də əhalinin hər 1000 nəfərinə düşən nigahların sayı 1992-ci ildən etibarən çoxalmağa başlayır və bu proses 2003-cü ilə qədər davam edir. Bu müddətdə ümumi nigah əmsalı şəhərdə 8,6-6,4, kənddə 11,3-7,4 arasında dəyişmiş, başqa sözlə azalmışdı. Bütövlükdə, 1989-1999-cü illərdə bağlanan nikahların sayı və təbii ki, ümumi nikah əmsalı şəhərlərdə 2, kəndlərdə isə 2,4 dəfə azalmışdı. Maraqlıdır ki, 1999-cu ildə həm ümumiliklə (4,8), həm də şəhər (4,7) və kənddə (4,8) ümumi nigah əmsalı bir-birinə çox yaxın olmuşdur.

---

[1] Şükürov K.K. Demoqrafiya. Ensiklopedik lüğət. Bakı: BDU-nun nəşri, 2001, s. 20.

Doğuma təsir göstərən amillər içərisində **boşanmanı** da qeyd etmək lazımdır. 1999 və 2009-cu il siyahıya almaları zamanı kənddə əhalinin hər 1000 nəfərinə düşən boşanmaların sayı 0,3 və 0,5-ə bərabər olmuşdur ki, bu da şəhər yerlərindən müvafiq olaraq 3,3 və 2,4 dəfə azdır[1] .**Ölüm – əhalinin** təbii hərəkətinin doğumdan sonra ikinci vacib komponentidir və bir sıra göstəricilərinə görə hesablanır. ölümün nisbi qiyməti azalsa da mütləq qiyməti artmaqda davam edir. Son 20 il ərzində doğulanların mütləq sayı azalır, əksinə ölənlərin sayı kəskin şəkildə artır. 1991-ci ildə respublikada 190353 nəfər körpə doğulmuşdursa, 1999-cu ildə bu rəqəm azalaraq 117539 nəfərə, 2009-cu ildə isə 152139 nəfərə enmişdir. Həmin dövrdə ölənlərin sayı müvafiq olaraq 44659; 46295; 52514 nəfər olmuşdur. Yəni 1991-2009-cu illər arasında doğulanların sayı 38214 nəfər azaldığı halda, ölənlərin sayı 7855 nəfər artmışdır[2] .

**Uşaq ölümü və ya başqa** sözlə 1 yaşa qədər uşaq ölümü, ölkə əhalisinin yaşayış səviyyəsini və sağlamlığını özündə əks etdirən əsas demokrafik göstəricidir. Son 20 ildə hər 1000 nəfər diri doğulana 1 yaşa qədər körpə ölümünün dinamikası eyni olmamışdır və bütün tədqiq edilən dövr ərzində azalmağa doğru getmişdir. 1989-cu ildə körpə ölümünün əmsalı 26,2 nəfərə bərabər idi. Körpə ölümü əmsalı 1989-1995-ci ildə 26,2-dən 23,3-ə qədər azalır, 1996-1997-ci illərdə sabitləşir və 1998-ci ildən azalmağa doğru gedir. Həm 1991-1999-cu illərdə, həm də 1999-2009-cu illərdə respublikada körpə ölümü əmsalı 1,5 dəfə azalmışdır. Azərbaycan regionlarında 1 yaşa qədər uşaq ölümünü nəzərdən keçirək: 1991-ci ildə respublika əhalisi içərisində hər 1000 diri doğulan uşaqlar arasında 1 yaşa qədər uşaq ölümü əmsalı 25,3 nəfər, o cümlədən şəhər əhalisi içərisində 21,5, kənd əhalisi içərisində bundan 7,2 nəfər çox, yəni 28,7 nəfər olmuşdur. Onu da qeyd edək ki, Quba-Xaçmaz (40,3 nəfər), Kəlbəcər-Laçın (32,5 nəfər), Abşeron (28,6 nəfər), Gəncə-Qazax (28,9 nəfər), Aran (25,4 nəfər), Şəki-Zaqatala (26,3 nəfər), Dağlıq Şirvanda (26,7 nəfər) bu göstərici daha yüksək idi. Hətta bu iqtisadi regionlarda 1 yaşa qədər uşaq ölümü göstəriciləri ümumrespublika göstəricilərindən də yüksək olmuşdur. Naxçıvan (19,1 nəfər), Yuxarı-Qarabağ (21,7 nəfər), Lənkəran-Astara (24,6 nəfər) iqtisadi regionlarda uşaq ölümü aşağı səviyyədədir. 2009-cu ildə, yəni tədqiq edilən dövrün sonunda ümumrespublika miqyasında 1

---

[1] Azərbaycanın Demoqrafik Göstəriciləri (statistik məcmuə) 2010. Bakı: Səda, 2010, s.310-312.

[2] Azərbaycanın Demoqrafik Göstəriciləri (statistik məcmuə) 2010. Bakı: Səda, 2010, s.81.

yaşa qədər uşaq ölümü 2,23 dəfə azalaraq 11,3 nəfərə enmişdir. Şəhər yerlərində bu göstərici 14,4 nəfər, kənd yerlərində bundan (-6 nəfər) xeyli az – 8,4 nəfər olmuşdur. 1991-ci ilə nisbətən 2009-cu ildə hər 1000 nəfər diri doğulana 1 yaşa qədər uşaq ölümü Abşeron iqtisadi rayonunda 1,9, Gəncə-Qazaxda 3,1, Şəki-Zaqatalada 2,4, Lənkəran-Astarada 3,2, Quba-Xaçmazda 3,8, Aranda 2,5, Yuxarı-Qarabağda 2,9, Kəlbəcər-Laçında 4,0, Dağlıq Şirvanda 2,7, Naxçıvanda 9,0 dəfə aşağı düşmüşdür[1] .

Əhalinin ümumi **təbii artımı əmsalı** doğumun və ölümün ümumi əmsalının fərqinə bərabərdir. Əhalinin təbii artım əmsalının əhəmiyyətli dərəcədə artması «demoqrafik partlayışa» səbəb ola bilər. Belə hallarda doğumun kəskin şəkildə artmasıyla yanaşı, ölüm halları da aşağı düşür[2] . 2000-2009-cu illəri əhatə edən 10 il ərzində Naxçıvan, Dağlıq Şirvan, Şəki-Zaqatala iqtisadi rayonlarını çıxmaq şərtilə, yerdə qalan bütün iqtisadi rayonlarda təbii artım nəinki azalmamış, əksinə az da olsa artmışdır. Son 10 ildə bəzi iqtisadi rayonlarda təbii artımın çoxalması doğumun artmasilə bağlıdır. Əhalinin təbii artımının azalması və ya cüzi artım yaxın gələcəkdə öz mənfi təsirini göstərəcəkdir. Belə ki, əhalinin yaş strukturunun, cinsi tərkibinin dəyişməsi gələcəkdə əmək qabiliyyətli əhalinin azalmasına və yaşlı əhalinin xüsusi çəkisinin artmasına və hətta əhalinin sayının azalmasına və ya sabit qalmasına təsir göstərəcəkdir. Tədqiq edilən dövrün sonunda Abşeron (9,0 nəfər), Gəncə-Qazax (8,9 nəfər), Şəki-Zaqatala (9,1 nəfər), Quba-Xaçmaz (10,3 nəfər) iqtisadi rayonlarında təbii artım əmsalı ümumrespublika göstəricilərindən aşağı, Yuxarı Qarabağ (11,3 nəfər) iqtisadi rayonunda bərabər olmuşdur. Aran (12,1 nəfər), Kəlbəcər-Laçın (14,3 nəfər), Dağlıq Şirvan (11,6 nəfər), Lənkəran-Astara (14,8 nəfər), Naxçıvan (14,3 nəfər) iqtisadi rayonlarının təbii artım göstəriciləri respublikanın göstəricilərindən yuxarı olmuşdur[3].

Əhalinin miqrasiyası adı altında onun bir əraziyə köçməsi, yerləşməsi başa düşülür. Lakin miqrasiya adı altında tək deyil, bir qrup insanlar başa düşüldüyü üçün, o cəmdə götürülür və başa düşülür. İqtisadçı R.Adıgözəlovun göstərdiyi kimi, XX əsrin sonu XXI əsrin əvvəllərində planlı iqtisadiyyatdan

---

[1] Azərbaycan əhalisi 2010 (statistik bülleten). Bakı: ARDSK, 2010, S.90-92; Azərbaycanın Demoqrafik Göstəriciləri (statistik məcmuə) 2009. Bakı: Səda, 2009, s.239-241.

[2] Şükürov K.K. Azərbaycan əhalisi: Öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: Elm 2004, s.253**;** Воспроизводство населения СССР. М.: Финансы и статистика. 1983, s.240.

[3] Воспроизводство населения СССР. М.: Финансы и статистика. 1983, s.255.

bazar iqtisadiyyatına keçid dövrünü yaşayan Azərbaycanda miqrasiya doğum və ölümlə yanaşı demoqrafik dəyişikliklərə ciddi təsir göstərdi [1].

Ölkəyə ən çox gələnlər və gedənlər məhz 1990-1994-cü illərdə baş vermişdir ki, bu da respublikada mövcud olan qeyri-sabitliklə, etnik savaş və s. bilavasitə bağlı idi. Azərbaycandan 1991-ci ildə daimi yaşamaq üçün xaricə gedənlərin sayı 106,4 min nəfər, gələnlərin sayı isə 66,3 min nəfər olmuşdur. Göründüyü kimi, Azərbaycandan gedənlərin sayı, gələnlərdən 40,1 min nəfər çox idi.

Miqrasiya axınının istiqamətlərinə uyğun olaraq daxili və xarici miqrasiyaya bölünür. Azərbaycanda bunların hər ikisi özünü kəskin şəkildə büruzə verirdi. Xarici miqrasiya – əhalinin öz ölkəsinin sərhədindən emiqrasiya etməsi, daxili miqrasiya dedikdə isə hər hansı bir ölkənin daxilində əhalinin yerdəyişməsi miqrasiya prosesləri nəzərdə tutulur.

XX əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəlində baş verən qanlı hadisələr üzündən respublikada əhalinin kütləvi yerdəyişməsi baş verir. Bunun nəticəsində də 1997-ci ildə Azərbaycanda 843 000 qaçqın və məcburi köçkün var idi. (Bu barədə I fəsildə geniş bəhs edilmişdir). Onların əksəriyyəti Bakı, Gəncə, Şirvan, Sumqayıt, Mingəçevir şəhərlərində yerləşmişdilər. 1988-ci ildən respublikanı müxtəlif millətdən olan 500.000 çox adam tərk etmişdir. Dövlət daxili və xarici miqrasiyanı nizama salmağı özünün miqrasiya siyasətinin əsas məqsədi hesab edir. Proqramda deyildiyi kimi «Dövlət miqrasiya siyasətinin əsas məqsədi Azərbaycan Respublikasının milli təhlükəsizliyini və milli maraqları qorumaqla miqrasiya axınlarının tənzimlənməsi, nəzarətsiz miqrasiya proseslərinin neqativ nəticələrinin qarşısının alınması, miqrantların öz hüquqlarını həyata keçirmək üçün şərait yaradılmasıdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan eimi araşdırmalara yekun vurulmuş, ümumiləşdirmələr edilmişdir.

[1] Адыгезалов Р. Анализ факторов демографический процессов в Азербайджане (90-е годы) // Возрождение XXI век, 2000, №2, s.67, с. 57-69.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1.“Qarabağ problemi və Azərbaycan əhalisi” “Tarix və onun problemləri” Bakı, 2008, № 4, s. 213-217.

2. “Azərbaycan Respublikası əhalisinin say dinamikası və yerləşməsi (1991-2008-ci illər)”. BDU-nun Xəbərləri, № 4, 2008, s. 166-171.

3. “XXI əsrin əvvəllərində Azərbaycanda gedən əsas demoqrafik proseslər”. GDU-nun Elmi Xəbərləri, № 3, 2011, s. 91-95.

4. “XXI əsrin əvvəllərində Azərbaycanda gedən əsas demoqrafik proseslər”. Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları, Bakı, Müəllim nəşriyyatı, 2012, s. 192-195.

5. “Müstəqillik dövründə Azərbaycan əhalisinin miqrasiyası”. Bakı Slavyan Universitetinin Azərbaycan xalqının ümummilli lideri Hetydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr edilmiş III Beynəlxalq elmi konfransının materialları, Bakı, 2012, s. 454-457.

6. “Müstəqillik dövründə Azərbaycan əhalisinin yaş və yaş cins tərkibi”. GDU-nun Elmi Xəbərləri, № 3, 2012, s. 108-114.

7. “Общественно – политическая и демографическая ситуация в Азербайджане на рубеже XX и XXI веков”. Гилея (научный вестник), Национальный Педагогический Университет им. М.П.Драгоманова, Академия Наук Украйны, 2013. Выпуск 74 (№ 7) с. 110-113.

**И.А. МАМЕДОВ**

## Население Азербайджанской Республики: историко-демографическое исследование (1991-2009-е годы)

## РЕЗЮМЕ

В диссертации впервые в азербайджанской историографии в комплексном виде исследованы историко-демографические проблемы населения Азербайджана после восстановления независимости Азербайджана в 1991 году.

Диссертация состоит из введения, трех глав, заключения, списка использованной литературы и источников, приложения.

Во введении обоснована актуальность темы, даны и обоснованы хронологические рамки, исследована степень изученности и источниковая база, указаны цели и задачи, научная новизна, теоретическая и практическая значимость исследования.

Первая глава диссертации называется «Демографическое положение населения Азербайджана в 80-90-е годы XX века». Здесь проанализирована общественно-политическая ситуация накануне развала СССР, повлекшая за собой межнациональный и территориальный конфликт между Арменией и Азербайджаном. Окончательная депортация азербайджанского населения из Армении, оккупация 20% территории Азербайджана, около 1 млн. беженцев и вынужденных переселенцев внесли свои изменения в количественный и качественный состав населения независимого Азербайджана.

Во второй главе «Население Азербайджана по переписям 1999 и 2009 годов» исследуются динамика и размещение, национальный и половозрастной состав населения по экономическим регионам республики. Во втором параграфе «Национальный состав населения в период независимости Азербайджана» данной главы приводятся статистические данные по национальному составу населения, в частности численности армянского населения, выражается сожаление, что коренное население Азербайджана - ингилойцев зарегистрировали как грузин, что является пережитком российской и советской статистики. По итогам переписи населения 2009 года в национальный состав населения Азербайджана включены автохтоны – крызы и хиналугцы.

Третья глава диссертации называется «Естественный прирост населения» Здесь рассматривается уровень рождаемости и смертности среди населения республики за период с 1999 по 2009 год.

В «Заключении» диссертации дается итог и обобщение научного исследования.

**I.A.Mamedov**

## The population of the Republic of Azerbaijan: historical- demographic research ( 1991- 2009)

## Summary

The dissertation deals with the research of historical – demographic problem of Azerbajan's population after gaining state independence of Azerbaijan in 1991 and this problem is investigated bar first time in a complex form in Azerbaijani histography .

The dissertation consists of introduction, 3 chapters, conclusion, list of used literature and sources, addition.

In introduction actuality of theme is grounded, chronological frame is given and grounded, learning and source base level is investigated, gools and objectives, scientific innovation, theoretical an practical importance of investigation are shown .

The first chapter of the dissertation is called "Demographic situation of population of Azerbaijan in 80-90 s of the XX century". Here is analred public – political situation on the eve of collapse of USSR, causing inter – national and territorial conflicts between Armenia and Azerbaijan. Final deportation of Azerbaijan population from Armenia, occupation of 20 percent of Azerbaijan territory, about 1 million refugees and IDP made their changes in quantitative and qualitative constituency of population of independent Azerbaijani.

The second chapter "Census of population of Azerbaijan from 1999 till 2009" investigates dynamics and dislocation, national and gender age constituency of population according to regions of Republic. In the second paragraph " National constituency of population during the period of independence of Azerbaijan" statistical data about national composition of population, especially, the number of Armenian population have been investigated, here is expressed a regret that root population of Azerbaijan - ingiloys were registered as georgians, which is the result of russian and soviet statistics. As a result of census of population in 2009, avtokhtonis, kryzys and khinalygs were included in the composition of census.

The third chapter is called "Natural growth of population. Here the level of birth rate and mortality among the population in the Republic from 1999 till 2009.

In " Conclusion" result and generalization of scientific investigation is given.

**Kağız formatı 60x84 1/16**

**Tiraj 100**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ИЛЬХАМ АДИЛ оглы Мамедов**

# Населения Азербайджанской Республики: историко-демографическое исследование (1991-2009-е годы)

**Специальность: 5503.02 – Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2014**